# Avropadan əsən sülh küləkləri Ermənistandakı qızğın başları soyuda biləcəkmi?

***Nəhayət ki, Avropanın ünlü beynəlxalq təşkilatından Azərbaycana müsbət xəbər gəldi. Aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla görüşünün müsbət nəticələr verdiyi barədə məlumat aldıq.***



Danışıqlar başa çatdıqdan sonra jurnalistlər qarşısına çıxan Şarl Mişel Brüsseldə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla keçirilən üçtərəfli görüşün yekunları ilə bağlı ətraflı məlumat verdi. Avropa İttifaqı Şurasının Prezidenti bildirdi ki, Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla çox gözəl və səmərəli görüş keçirilib. Onun sözlərinə görə, Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün olduqca mühümdür: “Ona görə də biz bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləməklə məşğuluq və bu gecə böyük bir irəliləyişə nail olduq. Bu isə o deməkdir ki, biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik. Biz, həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq”.

Təbii ki, Avropa strukturlarından “böyük bir irəliləyişə nail olunması” barədə xəbər eşitmək olduqca xoşdur. Azərbaycan ictimaiyyəti son 30 il ərzində bu qitədən heç vaxt belə ümidverici xəbər eşitməyib. Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin işğalı ilə bağlı indiyədək nə Avropa İttifaqı, nə ATƏT, nə də AŞ uğurlu bir addım atmamış, təcavüzkarı öz adı ilə çağırmamış, münaqişəyə ikili standartlarla yanaşmışdı. Münaqişənin nizamlanması üçün yaradılmış ATƏT-in Minsk qrupunun faydalı iş əmsalı isə ümumiyyətlə sıfıra bərabər olmuşdu. Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə tənqidi fikirlər səsləndirib.

Beləliklə, birinci dəfədir ki, Avropa İttifaqı tərəflər arasında sülh yaradılması işinə ciddi töhfələr verməyə başlayır. Bunu, əlbəttə, alqışlamaq lazımdır. Təbiidir ki, Azərbaycan regionda sülh yaradılmasını, ölkələr arasında qarşılıqlı əməkdaşlığın qurulmasını istəyir. Bunun üçün rəsmi Bakı dəfələrlə hamı üçün faydalı olan müxtəlif təkliflər və layihələr irəli sürüb. Bunların arasında Ermənistanla iqtisadi əlaqələrin bərpası, 3+3 formatında yeni əməkdaşlıq, Zəngəzur dəhlizinin açılması və s. kimi təklif və layihələr olub. Üstəlik, bu layihələr çərçivəsində Rusiya, Türkiyə və İran kimi böyük dövlətlərlə geniş əməkdaşlıq üçün perspektivlər də açıla bilirdi. Amma Ermənistan münaqişə dövründə problemin sülh yolu ilə həllindən imtina etməklə ordusunu və munlərlə canlı qüvvəsini güdaza verdiyi kimi, postmünaqişə dövründə də bütün bu faydalı təkliflərdən yararlanmadı.

Bəs indi? İndi sülh müqaviləsinin işlənməsi, münaqişəyə birdəfəlik son qoyulması və əməkdaşlığa başlanılması ilə bağlı məsələlərin ciddi şəkildə ortaya qoyulduğu, özü də Avropa İttifaqı kimi böyük və nüfuzlu bir təşkilatın patronajlığı ilə böyük bir işə başlanılması Ermənistanı qane edirmi? Axı bu təklif və təşəbbüslər ilk növbədə Ermənistanın özü üçün faydalıdır. Bunu Ermənistanda nəzərə alırlarmı?

Təəssüf ki, Brüssüldə Paşinyan İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti ilə görüşdə konkret təkliflərə razılıq verdiyi bir vaxtda Ermənistanda müxalifət yenə bu böyük işə badalaq gəlməyə başladı. Paşinyan hələ Brüsseldə təyyarədən yerə enməmiş Ermənistanda parlamentin müxalif “Ermənistan” və “Şərəf duyuram” fraksiyalarının təşkilatçılığı ilə aksiya keçirildi. Aksiyada Ermənistanın sabiq dövlət başçısı, Qarabağ münaqişəsinin baş körükçülərindən və Xocalı soyqırımının təşkilatçılarından biri Serj Sarkisyan da vardı. Etirazçılar Qarabağın Azərbaycanın tərkibində heç bir statusla qala bilməyəcəyi barədə separatçı və revanşist şüarlar səsləndirirdilər. Bu, 2020-ci ilin payızında biabırcasına məğlub olmuş və kapitulyasiya aktına imza atmış Ermənistanda bəzi qüvvələrin işğalçılıq niyyətinin, qisasçı siyasətinin hələ başa çatmadığını göstərir. Təbii ki, mitinqdə ortada əsasən müxalifət görünsə də, çox güman ki, hakimiyyətin bəzi qolları və ayrı-ayrı “xadimləri” də aksiyaçılarla həmfikirdirlər. Şübhə etmirik ki, hakimiyyətdəki revanşistlər də aksiya iştirakçıları kimi, “nəyin bahasına olursa olsun Azərbaycanla yenidən müharibəyə başlanmasını” tələb edirdilər.

Görünür ki, Ermənistanda 44 günlük müharibə zamanı ordunun tamamilə darmadağın edildiyini, iqtisadiyyatın tamamilə iflic olduğunu unudurlar. Ermənistan indi hansı qüvvə ilə günbəgün güclənən Azərbaycanla yenidən müharibəyə girə bilər? Görünən budur ki, Ermənistanın nə hakimiyyət dairələri, nə də müxalif qüvvələri düşdükləri siyasi vəziyyəti düzgün qiymətləndirmək iqtidarında deyil və dünyada baş verən proseslərdən doğru nəticə çıxara bilmir. Onlar çətin də olsa qəbul etməlidirlər ki, münaqişə bitib, Qarabağ birdəfəlik itirilib və Azərbaycan artıq bütün tarixi torpaqları üzərində suverenliyini bərpa etmək üzrədir. Azərbaycanla yeni müharibə iddiasında olanlar başa düşməlidirlər ki, bu halda Ermənistan olmayan dövlətçiliyini tamamilə itirəcək. Çünki Azərbaycanla baş-başa gəlmək üçün bu marionet dövlətin heç nəyi yoxdur.

Elə həmin gün Ermənistanın “Hraparak” qəzeti yazırdı ki, bu gün Brüsseldə üç lider tərəfindən sənəd imzalansa, Qarabağın Rusiyaya birləşdirilməsi üçün imza toplanmasına başlanacaq. Nəşrin ölkədəki hansısa “mənbə”lərə istinadən bildirdiyinə görə, Brüsseldə sənəd imzalanacağı təqdirdə, ilk saniyədən etibarən Qarabağda qondarma qurumun Rusiyaya birləşməsi istiqamətində siyasi prosesə başlamaq qərara alınıb.

Dünən Brüssel görüşünün nəticələri haqqında danışan Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan deyib ki, Şarl Mişelin bəyanatında “Artsax, onun gələcək statusu haqqında” heç nə deyilmir. ATƏT-in Minsk qrupu xatırlanmır, Azərbaycanın aqressiyası ittiham olunmur. Bunun əvəzində XİN başçılarına tapşırılır ki, sülh müqaviləsini hazırlasınlar. Bunun əvəzində aprelin axırına qədər Birgə sərhəd komissiyasını yaratmaq tapşırılır. Eyni zamanda, qoşunların çıxarılması şərti qoyulur.

Politoloqlar Edqar Elbakyan və Tiqran Qriqoryan da hesab edirlər ki, sənəddə Ermənistanın milli maraqları nəzərə alınmayıb. Elbakyan hesab edir ki, faktiki olaraq Minsk qrupu ləğv olunur. Qriqoryanın fikrincə isə, Ermənistan sülh danışıqlarının Minsk qrupunun vasitəçiliyi və himayəsi altında başlamalı olması barədəki mövqeyindən faktiki geri çəkilir. Eyni zamanda, Ermənistan sərhəddə gərginliyin aradan qaldırılması üçün addımlar atılmadan delimitasiya ilə bağlı ikitərəfli komissiyanın yaradılmasına razılıq verib. Bütün bunlar isə Ermənistanın danışıqlardan məğlub çıxdığını göstərir.

Azərbaycanlı ekspertlər hesab edirlər ki, Ermənistanda separatçıların və revanşistlərin təhdid dolu açıqlamaları və İrəvanda mitinqlərin keçirilməsi Paşinyanın siyasi oyunundan başqa bir şey deyil. Onların fikrincə, Paşinyan Brüsseldə göstərmək istəyib ki, onun alternativi separatçılardır və onlar bölgədə sülhə ən böyük maneədir. Bu mənada Ermənistanın baş naziri Azərbaycana mesaj vermək istəyib ki, onunla razılığa gəlsin. Əks halda danışıqları separatçı və revanşistlərlə davam etdirə bilər.

Azərbaycan isə, təbii ki, qalib tərəfdir və bu oyunlara güzəştə gedə bilməz. 2020-ci ili 10 noyabr üçtərəfli bəyanatı da bir daha təsdiq edir ki, müharibənin qalibi və əsas söz sahibi Azərbaycandır. Və o, artıq heç kimi gözləmək, heç kimin nazı ilə oynamaq niyyətində deyil. Bunu rəsmi Bakı Zəngəzur dəhlizi məsələsində də göstərdi. Ermənistan hətta özü üçün bu qədər faydalı olacaq dəhlizin açılmasına qərar verə bilmədi və artıq bu proses İranla həyata keçirilir. Bu günlərdə İran tərəfi bununla bağlı Azərbaycanla bağlanmış müqaviləni təsdiqlədi.

Beləliklə, artıq Brüsseldən ciddi xəbərlər gəldi. Artıq sülh müqaviləsi üzərində işə başlanacaq. Eyni zamanda, delimitasiya və demarkasiya məsələləri də həllini tapacaq. İnanmaq istəyirik ki, Paşinyan və Ermənistan hökuməti ölkə üçün sonuncu ola biləcək bu nəfəsliyi də barmaqları ilə tıxamayacaqlar. Nəhayətdə heç olmasa, 30 ildən sonra regiona sülh gələcək və insanlar rahat, münaqişəsiz həyata qayıda biləcəklər.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 8 aprel.- S.4.